**Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q**

**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2025.3.9**

**ŞƏHLA FƏTƏLİYEVA***

# MƏHƏMMƏD FÜZULİ ŞƏRQ POEZİYASININ NADİR İSTEDADI KİMİ

*Məqalədə Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Məhəmməd Füzulinin yaradıcılığı haqqında bir sıra araşdırmalar aparılmışdır. Qələmə aldığı əsərlər vasitəsilə Şərq ədəbiyyatında çox zəngin bir irs buraxmışdır.*

*Məhəmməd Füzulinin zəngin irsini daha ətraflı izah edib araşdırmaq üçün hər şeydən əvvəl, onun şeir, sənət dünyasına olan münasibətini müəyyənləşdirmək lazımdır. Şairin yaradıcılığının zəngin və çoxcəhətli tərəfləri tədqiqata cəlb edilmişdir.*

*Füzuli şeirin, poeziyanın yüksəkliyindən söhbət açdığı zaman sənətkarın qarşısında daha mühüm vəzifənin durduğunu qeyd edirdi. Füzuli Yaxın Şərqdə lirik şeirin ən böyük ustadı hesab edilir.*

*Şair qəzəllərində məhəbbət mövzusu ön planda olmuşdur. Məhəmməd Füzulinin qəzəlləri, qəsidələri, qitələri, poemaları vardır. Lirik əsərlərlə yanaşı şairin nəsr əsəri də mövcuddur. Məqalədə bütün bunlar haqqında ardıcıl olaraq söhbət açılmış və geniş şərh olunmuşdur.*

***Açar sözlər:*** *Məhəmməd Füzuli, Şərq, yaradıcılıq, qəzəl, qəsidə.*

## Giriş

Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Məhəmməd Füzulinin yaradıcılığı son dərəcə zəngin və çoxcəhətlidir. Şair gənc yaşlarından başlayaraq orta əsrin bütün ədəbi janrlarında əsərlər yaratmışdır. Qələmə aldığı bu əsərlər vasitəsilə Şərq ədəbiyyatında çox zəngin bir irs buraxmışdır.

Füzuli şeirə, sənətə, şairlik peşəsinə ən müqəddəs bir iş kimi baxır, onun ictimai, idraki əhəmiyyəti haqqında yüksək fikirlər söyləmiş və qiymətləndirmişdir.

Məhəmməd Füzulinin zəngin irsini daha ətraflı izah edib araşdırmaq üçün hər şeydən əvvəl, onun şeir, sənət dünyasına olan münasibətini müəyyənləşdirmək lazımdır.

Füzuli şeirə, poeziyanın yüksəkliyindən söhbət açdığı zaman sənətkarın qarşısında daha mühüm vəzifələrin durduğunu qeyd edirdi.

Şairin qələmində sözün dərəcəsi və rütbəsi ucadır. Söz bilən adamın hər yerdə hörməti olar fikri şairin qəzəllərində həmişə ön planda özünə yer tutmuşdur.

Sözün doğruluğu deyilən sözün qiymətini artırır və s., bu kimi fikirlərlə şair sözün qüdrətini bir daha oxucu diqqətini artırır.

Füzuliyə görə şeir, sənət həyatı düzgün əks etdirmək üçün həm də dünyada pisin, yaxşının aynası olmalıdır.

Məhəmməd Füzuli göstərir ki, sənətkarın vəzifəsi təkcə həyatı düzgün əks etdirməklə bitmir, bu eyni zamanda ideyaya, həyati faktlara xidmət etməlidir.

Xəlqə ağzın sirrini hərdəm qılır izharı söz
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edər hər saət səni ol uyqudan birdar söz.

Gər çox istərsən Füzuli izzətin, az et sözü,
Kim, çox olmaqdan qılıbdır çox ərzi xari söz.

[1, s. 27]

Şairə görə söz ümmanı hüdudsuz olsa da, onun içindən deşilməmiş dürr tapmaq çox çətindir. Bunun üçün həqiqi söz sərrafı hər bir çətinliklərdən keçməli, hər cür məhrumiyyətinə dözməli, təfəkkür dənizinin dərinliklərindən qiymətli incilər seçib üzə çıxartmalıdır.

Hər bir sənətkar özündən əvvəlki klassik irsi dərindən öyrənməlidir ki, başqa qələm sahibləri tərəfindən deyilmiş kəlamları, ifadələri ikinci dəfə təkrar etməsin. Şairin əsərlərindən aydın olur ki, özünün möhtəşəm, həmişəyaşar ədəbi məktəbini yaradarkən dünyəvi elmləri qadağan edən qüvvələrlə daima mübarizə aparmalı olmuşdur.

Füzuli klassik ədəbiyyatımızın təravətli, köhlənməyən mövzusudur. Əsrlərdir ki, Füzuli yeni-yeni bədii əsərlərin ilham mənbəyi olmuşdur. Şairin irsindən bəhrələnən digərləri özlərinin müxtəlif yaradıcılıq nümunələri ilə ölməz Füzuli məktəbini formalaşdırıblar.

Şərq anlayışı məzmun etibarı ilə Yaponiyadan tutmuş, Çin, İran, Türkiyə, Azərbaycan və s., Şərq ölkələrini nəzərdə tutaraq, geniş əraziləri bir ad altında birləşdirir.

Orta əsrlər türk xalqları ədəbiyyatına və eləcə də Azərbaycan ədəbiyyatında Füzuli ədəbi məktəb sahibləri Nizami, Nəsimi və Füzulinin olduğu gerçəklikdir. Məhz bu böyük klassiklərin sənət məktəbi sonrakı əsrlərdə qovuşuq şəkildə də fəaliyyət göstərmişdir.

Şərq ədəbiyyatından danışdıqda türk xalqları ədəbiyyatında özünəməxsus dəyərli yer tutan və böyük təsir qüvvəsinə malik olan Nəvainin də adını qeyd etməmək olmaz.

Azərbaycan ədəbiyyatşünaslığında, ədəbiyyatın inkişafında əvəzedilməz xidmətləri olan Məhəmməd Füzulinin irsinin öyrənilib tədqiq edilməsi və qiymətləndirilməsi həmişə ədəbiyyatımızın qarşısında duran virtual məsələlərdən olmuşdur.

Yaşayıb ədəbi fəaliyyət göstərdiyi XVI əsrdən bu günə qədər Füzulinin şəxsiyyəti, yaradıcılığı həm Azərbaycanda, eyni zamanda ölkəmizin hüdudlarından kənarda bir sıra tədqiqatların obyekti olmuşdur. Şairin yaradıcılığı ilə bağlı bir çox dəyərli fikirlər söylənilmişdir.

Füzulinin yaradıcılığı son dərəcə zəngin bir ədəbiyyat xəzinəsidir. Füzuli Yaxın Şərqdə lirik şeirin ən böyük ustadı hesab olunur. Eyni zamanda Azərbaycan lirikasının atası hesab olunur.

Füzuli lirik şeirə, qəzəl yazmağa xüsusi əhəmiyyət verməsi, onun şeiri, sənəti geniş xalq kütlələrinə çatdırmaq idi.

Şair məhəbbət mövzusunda yazılan lirik əsərlərin kiçik həcmli olmasından daha əlverişli olmasını məqsədəuyğun hesab edirdi. O, öz lirikasında təkcə qəzəl deyil, eyni zamanda, müxəmməs, tərcibənd kimi formalardan da istifadə etmişdir.

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir gülü-bustani-hünər
Qəzali-qəzəl seydi asan deyil,
Qəzəl münkiri, əhli-irfan deyil
Qəzəl bildirər şairin qüdrətini,
Qəzəl artırar nazimin şöhrətin....

[2, s. 112-113]

Bu misralardan bəlli olur ki, Füzuli şeir növləri içərisində qəzəl janrının bir çox xüsusiyyətlərinə əsalanaraq daha çox dəyər, qiymət verirdi.

Füzulinin məhəbbət anlayışı haqqında ayrıca söhbət açmaq, fikir yürütmək zəruridir.

Məhəmməd Füzuli yaradıcılığında Füzulinin məhəbbəti daha çox yüksəkdə duran ülvi və müqəddəs bir məhəbbətdir.

Gizli dərdim olmaz cahanda bu qədər qəmlə əyan,
Bu sükutun özü hali-dilimi etdi bəyan.

Bir zaman çıxmadı candan kədəri cananın,
Yarı candır mənə dərdi, keçə bilmirəm ondan.
[3, s. 34]

“Füzuli böyük bir ədəbi məktəbin başında durmuş, şairlərin əsrlərlə bəhrələnə biləcəyi bir irsi xalqına töhfə vermişdir”. [4, s. 49]

Füzuli əsərlərinin bir qiyməti, gözəlliyini də ondadır ki, bu lirik parçalarda xəyali yox, həyatda olan real insanları, real gözəllikləri və real gözəlləri tərənnüm etmişdir.

“Hər könül özünə bir padşahdır, hər kəs öz daxili aləmində sultanlardan, şahlardan yüksəkdir-fikri ilə yaşayan sənətkar özünü Şərq aləmində eşqin ən sadiq və məşhur surətləri olan Məcnundan, Fərhaddan, Banudan üstün tutur”. [5, s. 20]

Şairin düşüncəsinə görə məhəbbət həyat boyu insanları bir-birinə yaxınlaşdıran bir müqəddəs qüvvədir. Bütün gözəllikləri özündə cəm etmiş, mənəvi cəhətdən qüdrətli insan hər şeydən yüksəkdir.

Şərh etsəm eşqini, tutar heybət zəbanım,
Izhar edim necə sənə sirri-nəhanımı?
Agah edib bu zövq qəmi eşqdən məni,
Canımla bağlayıb bu təni-natəvanım.
[3, s. 45]

Məhəmməd Füzuli şeir yazmağın özünü bir elm hesab edirdi. Şair bir anlamda şeir yazmaq üçün istedadla bərabər şeir texnikasına aşina olmağı nəzərdə tuturdu.

Məhəmməd Füzulinin əsrarəngiz poetikası haqqında monoqrafik tədqiqatın müəllifi M.Cəlal yazırdı: “Aldanma ki, şair sözü, əlbətdə yalandır”-deyə Füzuli şeirinin bədii icad ustası olduğunu dönə-dönə təkidlə qeyd edir. Füzuliyə görə həyat, hadisə, fakt öz-özlüyündə sənətkarsız da vardır. Lakin sənətkarın böyüklüyünü, bu varlığı daha yüksək “təsahət və bəlağət” aynasında necə əks etdirməsindən, hadisələri şairanə bir şəkildə duyub düşünməsindən asılıdır. Bunun üçün də xəyal, fantaziya, yaratmaq hünəri sənət üçün zəruridir. [5, s. 51]

Füzulinin məhəbbət mövzusunda yazılmış istənilən bir qəzəlini götürsək orada məşuqəyə olan dərin məhəbbətin yüksək sənətkarlıq dili ilə kəşf edildiyini görərik.

Od yanaqlı yardan ayrı saldı
çin dövran məni,
Bir qığılcım tək, yəqin bil,
məhv edər hicran məni
Qəm deyil, canan yanında gər
məni pislər rəqib,
Imtahan etmiş vəfa rahində
çün xuban məni.
Ey Füzuli, dərdi-eşqim bir zaman
pünhan idi,
Qıldı rüsva xalq içində dideyi-
giryan məni.
[1, s. 100]

Şair insanın hər yolla həqiqi aşiq olmağa layiq olduğunu söyləyir. Istənilən dostluq, mehribanlıq və məhz güclü məhəbbət əsasında qurulur, yaranır. Əsl gözəllikləri özündə cəmləşdirmiş, mənnən qüdrətli insan, bu hər şeydən yüksəkdə durur. Elə bu qüvvənin olmasıdır ki, istənilən insanı öz şəxsi mənfətlərindən əl çəkməyə vadar edir.

Canı kim cananı üçün sevsə cananımı sevər,

Canı üçün kim ki, cananını sevər canın sevər.
Hər kimi aləmdə miqdarıncadır təbində meyl,
Mən ləbi-cananımı Xızr abi-heyvanın sevər.

[3, s. 108]

Füzulinin zəmanə, zəmanədə gedən proseslər, ictimai həyata tətbiqi münasibəti onun qitələrində daha aydın ifadə olunmuşdur. Şairin qitələri içərisində nəsihət xarakterli, oxumağa, öyrənməyə çağıran, bəxtindən şikayətlənən, dövrün mühüm işləri haqqında şairin münasibətini bildirənlər də vardır.

Füzuli lirikasında əsas yeri məhəbbət mövzusu tutsa da şairin əsərləri içərisində qəsidələri də kifayət qədər dəyərlidir. Şairin azərbaycanca, farsca, ərəbcə qəsidələri mövcuddur.

Füzulinin qəsidə formasında yazmış olduğu "Ənisül-qəlb" əsəridir. Şair bu əsərdə zülmü, istibdadı ciddi tənqid edərək ruhanilərin fitnə-fəsadından, haqsızlıqlarından bəhs etmişdir.

Füzuli öz dövründə baş verən bütün fəlakətlərin kökündə insanların acgözlüyünü, şöhrətpərəstliyini və s., görür.

Məhəmməd Füzulinin yaradıcılığında "Leyli və Məcnun" poeması xüsusi bir xətdir. Şair bu mövzunu o qədər sənətkarlıqla işləmişdir ki, Azərbaycan dilində bu mövzu ilə əlaqədar qələmə alınmış ədəbi nümunələrin ən yüksəkdə duranlarından hesab edilirdi. Bu mövzu Şərq ədəbiyyatında müraciət olunan mövzudur.

Füzulinin yaratmış olduğu qəhrəman saf məhəbbət, azadlıq arzusu ilə yaşamaq istəyən bir obrazdır.

Şairin yaradıcılığı, bu obrazda olan xüsusiyyətlər yaşadığı mühitin insanlarında yoxdur. Şair yaratmış olduğu Məcnun obrazını dövrünün kamil, yüksək düşüncəli bir gəncidir. Məhəmməd Füzuli əsərində Məcnun kimi insanların qədr-qiymətini bilməyən cahillərin hökm sürdüyü bir cəmiyyətə nifrət edir. Bu əsər bədii xüsusiyyətlərinə görə son dərəcə dolğun bir poemadır.

Məqalənin bundan öncəki hissələrində şairin lirikasına (qəzəl, qəsidə, qitə, poema) səyahət etdik. Şairin lirikasında bəzi məqamlara toxunduq. Lakin Məhəmməd Füzuli yaradıcılığı təkcə bunlarla bitmir. Eyni zamanda Füzuli Azərbaycan ədəbiyyatı tarixində nəsrin ilk nümunələrini yaradan görkəmli sənətkardır. Onun ana dilində qələmə aldığı "Şikayətnamə" əsəri diqqət önündədir.

**Nəticə**

Müasirlərindən fərqli olaraq Füzuli o vaxta qədər ədəbi dildə işlənən sözlərdən başqa xalqın həyat və məişətinə aid olan, lakin ədəbi dilə keçilməmiş ifadələri də ədəbi dilə gətirmiş, onun canlı danışıq dilinin ifadələri ilə zənginləşdirmişdir.

Füzuli yaradıcılığı Azərbaycan ədəbiyyatında həmişə yüksəklərdə parlayan ulduzdur. Füzuli elə bir dahidir ki, bir məqalədə onun yaradıcılığı haqqında tam olaraq fikir söyləmək olmaz. Illər keçəcək, ədəbiyyatçılar həmişə böyük şairimizin yaradıcılığına müraciət edəcəklər. Gələcək nəsillər bu saf lirika mənbəyindən istifadə edib faydalanacaqlar.

Bundan sonra da Füzuli yaradıcılığından yeni-yeni məqalələr, monoqrafiyalar işıq üzü görəcək.

## ƏDƏBİYYAT

1. Məhəmməd Füzuli: Seçilmiş əsərləri "Maarif" nəşriyyatı, Bakı-1983.
2. Həmid Araslı: Böyük Azərbaycan şairi Füzuli, Azərbaycan Uşaq Gənclər Ədəbiyyatı Nəşriyyatı, Bakı-1958.
3. Məhəmməd Füzuli əsərləri III cild Azərbaycan SSR Elmlər Akademiyası, Bakı-1958.
4. Aynurə Mahmudova: Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər) "Elm və təhsil", Bakı-2019.
5. Gülşən Əliyeva Azərbaycan Füzulişünaslığı, "Çaşıoğlu", Bakı-2007.

***Naxçıvan Müəllimlər İnstitutu, dosent,**
***Filologiya üzrə fəlsəfə doktoru***
***E-mail: shahlaFataliyeva@nmi.edu.az***

**Shahla Fataliyeva**

**MUHAMMAD FUZULI AS A RARE TALENT OF EASTERN POETRY**

In the article, a number of researches were conducted on the work of Muhammad Fuzuli, one of the prominent representatives of the classical literature of Azerbaijan. Through his works, he left a rich legacy in Eastern literature. In order to explain and explore the rich heritage of Muhammad Fuzuli in more detail, first of all, it is necessary to determine his attitude towards the world of poetry and art.

The rich and multifaceted aspects of the poet's creativity were involved in the research. When Fuzuli talked about the height of poetry, he noted that the artist had a more important task. Fuzuli is considered the greatest master of lyric poetry in the Middle East.

The theme of love was in the foreground in the poet's ghazals. Muhammad Fuzuli has ghazals, odes, verses, poems. In addition to lyrical works, there are also prose works of the poet. In the article, a conversation about all this was opened and extensively explained.

**Keywords**: *Muhammad Fuzuli, East, creativity, ghazal.*

**Шахла Фаталиева**

**МУХАММАД ФИЗУЛИ КАК РЕДКИЙ ТАЛАНТ ВОСТОЧНОЙ ПОЭЗИИ**

В статье проведен ряд исследований творчества Мухаммада Физули, одного из видных представителей классической литературы Азербайджана. Своими произведениями он оставил богатое наследие в восточной литературе. Чтобы более подробно объяснить и изучить богатое наследие Мухаммада Физули, прежде всего, необходимо определить его отношение к миру поэзии и искусства.

В исследовании были задействованы богатые и многогранные стороны творчества поэта. Когда Физули говорил о высоте поэзии, он отметил, что у художника есть более важная задача. Физули считается величайшим мастером лирической поэзии на Ближнем Востоке.

Тема любви стояла в газелях поэта на первом плане. У Мухаммада Физули есть газели, оды, стихи, поэмы. Помимо лирических произведений, существуют и прозаические произведения поэта. В статье разговор обо всем этом был открыт и подробно объяснен.

**Ключевые слова:** *Мухаммад Физули, Восток, творчество, газель.*

*Filologiya elmləri doktoru Akif İmanlı tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 13.06.2025**
**Son daxilolma tarixi:17.07.2025**